# Azərbaycanın qətiyyəti ABŞ-ni geri addım atmağa məcbur etdi

İki həftə əvvəl - noyabrın 15-də rəsmi səviyyədə "Azərbaycanla heç nə normal olmayacaq" bəyanını verərək ölkəmizlə təzyiq, təhdid dilində danışan ABŞ, üzərindən cəmi 12 gün keçdikdən sonra - noyabrın 27-də sözünü geri götürərək, Azərbaycana xahiş-minnətə düşdü.




Belə ki, noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş etdi.

Özündə bir çox "gizli", eyni zamanda açıq həqiqətləri ehtiva edən və siyasi gündəmə oturan bu mühüm hadisə, okeanın o üzündə oturub Cənubi Qafqazdakı reallıqlara erməni lobbisinin gözü (əslində pulu) ilə baxan "demokratik" ABŞ-nin riyakarlıqla öz çıxarlarına görə necə cilddən-cildə girməsini açıq göstərdi.

Bu həm də Azərbaycanın istənilən beynəlxalq gücə qarşı qətiyyətli mövqeyini, siyasi iradəsini ortaya qoyaraq milli maraqlarına zidd addımlara icazə verməməsini bariz nümayiş etdirdi.

## Ağ Evdə erməni fitnəsi

Vətən müharibəsinə qədər, eləcə də ondan sonrakı dövrdə ABŞ davamlı olaraq Azərbaycana qarşı ikili standartlı mövqe sərgiləyib. 1992-ci ildə bədnam 907-ci düzəlişi ilə yenicə müstəqilliyini qazanmış Azərbaycana qarşı qərəz siyasətinə start verən Vaşinqton vasitəçi olaraq da Qarabağ münaqişəsinin nizamlanması istiqamətində 27 illik böyük zaman dilimində heç bir əməli addım atmadı, erməni lobbisinin maraqlarına xidmət edərək, münaqişənin sonsuzadək uzanmasına çalışdı.

Buna görədir ki, "sülhsevər" ABŞ Azərbaycanın BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini güc yolu ilə həyata keçirərək torpaqlarını işğaldan qurtarmasını, eləcə də beynəlxalq hüquqa dayanaraq suverenliyini bərpa etməsini, Qarabağdan separatçıların kökünü qazıyıb atmasını qəbul edə bilmir.

44 günlük müharibənin üzərindən ötən üç il müddətində Ağ Ev sözdə sülh tərəfdarı olduğunu deyərək, əməldə bunun əksi ilə məşğul olub. Azərbaycanın suverenliyini təmin etməsindən sonra isə ABŞ siyasi hakimiyyətinin ölkəmizə qarşı böhtan xarakterli bəyanatları, təzyiq və təhdidləri daha da intensivləşib.

Noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Xarici İşlər Komitəsində keçirilən dinləmədə Azərbaycana birbaşa yardımları qadağan edən 907-ci düzəlişdən imtinanın müddətini uzatmayacağı ilə bağlı söylədikləri isə Vaşinqtonun Azərbaycanı konkret olaraq sanksiyalarla hədələdiyini aydın göstərdi.

"Humanist" ABŞ-nin "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən, Amerika Birləşmiş Ştatları hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərməsi qadağan olunub.

Göründüyü kimi, ABŞ bu düzəlişi nəinki ləğv etmək, əksinə, onun müddətini uzadaraq ölkəmizə təzyiqini davam etdirmək niyyətindədir.

## Qərəzli, həqiqəti əks etdirməyən fikirləri rədd edirik

Bir məqamı da xatırladaq ki, O'Brayn noyabrın 15-dəki sözügedən dinləmələrdə ABŞ-nin Azərbaycana münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə saldığını da bildirmişdi.

Azərbaycan Xarici İşlər Nazirliyi isə öz növbəsində məsələ ilə bağlı şərhində Ceyms O'Braynın səsləndirdiyi birtərəfli və qərəzli fikirləri səmərəsiz, əsassız və qəbuledilməz adlandırmış, belə bir şəraitdə ABŞ-nin rəsmilərinin Azərbaycana yüksəksəviyyəli səfərlərinin mümkünsüzlüyünü vurğulamışdı.

O da reallıqdır ki, Vaşinqtonun erməni dəyirmanına su tökən bu riyakar siyasəti Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.

A.Blinkenlə telefon söhbəti zamanı Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib. Həmçinin Azərbaycan tərəfinin ABŞ-nin Azərbaycana münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsinin xahişinə isə, Prezident İlham Əliyev yalnız bir şərtlə razı olub: bu səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılmalıdır.

Və Prezident İlham Əliyevin bu şərti Dövlət katibi Blinken tərəfindən qəbul olunub.

## Haqqın yolu birdir

Haqqın yolu birdir. İstənilən riyakarlıq, məkr, qərəz, qəsd Azərbaycanın tarixə, ədalətə dayanan həqiqətləri qarşısında aciz və gücsüzdür.

Azərbaycan torpaqlarının işğal altında olduğu 30 illik dövrdə münaqişənin danışıqlar yolu ilə həll olunması üçün çalışdı.

44 günlük Vətən müharibəsindən sonra da sülh təklif edən tərəf Azərbaycan olub və bu istiqamətdə mühüm addımlar gerçəkləşdirib. 23 saatlıq antiterror tədbirləri nəticəsində separatizmə ağ bayraq qaldırdıran ölkəmiz mülki əhaliyə heç bir zərər vurmayıb. Ölkəmizi könüllü tərk edən erməniəsilli sakinlərə hər cür şərait yaradılıb ki, bunu Qarabağa bir neçə dəfə səfər edən BMT missiyası da təsdiqləyib.

Lakin təcavüzkar Ermənistan hələ də sülh müqaviləsini bağlamaqdan yayınır, hətta daha da irəli gedərək yeni müharibəyə hazırlaşır.

İrəvanı revanşa qızışdıranlar isə Cənubi Qafqazda savaş marağında olan Qərbin siyasi dairələridir.

Lakin Azərbaycana qarşı təşkilatlanmış islamofob, türkofob qüvvələr darmadağın olmağa, siyasi-hərbi məğlubiyyətlərə uğramağa məhkumdurlar.

Elə noyabrın 27-də Azərbaycanın qazandığı növbəti siyasi-diplomatik qələbənin fonunda da aydın görmək olur ki, heç bir güc ölkəmizlə təzyiq və diktat dili ilə danışa bilməz, bu, "dünya nəhəngi" ABŞ olsa belə...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*


Azərbaycan. - 2023.- 30 noyabr, № 261.- S.6.